**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN MÜƏLLİMLƏR İNSTİTUTU**

**RÜFƏT HÜSEYNZADƏ**

# PEDAQOGİKA ELMİNİN TARİXİ VƏ METODOLOGİYASI

***magistr hazırlığı üçün***

**PROQRAM**

***Proqram Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur (Azərbaycan Respublikası Təhsil Nazirinin 29.06.2010-cu il tarixli, 879№-li əmri)***

**BAKI- 2010**

**Proqramın müəllifi: Rüfət Lətif oğlu Hüseynzadə**
**Pedaqoji elmlər doktoru, professor, Əməkdar Müəllim.**
**AMİ-nin Pedaqogika kafedrasının müdiri.**

**ELMİ REDAKTOR: Fərrux Abbas oğlu Rüstəmov**
**Pedaqoji elmlər doktoru, professor**

**Rəyçilər: İsmayıl İsrafil oğlu Əliyev - Pedaqoji elmlər doktoru, professor**
**Əsmər Sadıq qızı Bədəlova - Pedaqoji elmlər namizədi, dosent**
**Vidadi Paşa oğlu Bəşirov - Pedaqoji elmlər namizədi, dosent**

# PEDAQOGİKA ELMİNİN TARİXİ VƏ METODOLOGİYASI

***magistr hazırlığı üçün***

## PROQRAM

**BAKI- 2010**

# İZAHAT VƏRƏQİ

Son illərdə respublikamızın həyatında gedən köklü dəyişikliklər, təhsil sistemində aparılan geniş islahatlar, ali təhsil sisteminin xüsusilə onun magistratura pilləsinin həm məzmun və həm də formaca yeniləşməsi təbii olaraq fənn proqramlarının, dərslik və dərs vəsaitlərinin yeniləşməsini, təkmilləşməsini, fənlərin tədrisində yeni texnologiyalardan, fəal təlim metodlarından istifadə edilməsini tələb edir. Bu sahədə pedaqogika elmi aparıcı mövqedə olmaqla bərabər pedaqogika fənninin özünün, məzmununun, quruluşunun, müxtəlif sahələrinin, o cümlədən **"Pedaqogika elminin tarixi və metodologiyası"** fənninin yeni tələblər əsasında yenidən işlənməsi zərurətini meydana gətirmişdir.

Bu proqramın hazırlanmasında magistrantların hələ bakalavr pilləsində "Pedaqogika", "Pedaqogika tarixi" kimi fənləri keçib öyrənmələri nəzərə alınmışdır. Məhz həmin pedaqoji biliklər üzərində təhsilin magistratura pilləsində **"Pedaqogika elminin tarixi və metodologiyası" fənninin tədrisi nəzərdə tutulmuşdur.**

**"Pedaqogika elminin tarixi və metodologiyası" fənnini başqa fənlərlə müqayisədə yeni fənn hesab etmək olar. Bu fənn yeni olmaqla bərabər həm də xüsusi diqqət və dərin pedaqoji bilik tələb edən fənlərdəndir. Bu fənn adından da bəlli olduğu kimi iki hissədən ibarətdir: Pedaqogika elminin tarixi və pedaqogika elminin metodologiyası.**

**Bu fənn nə pedaqogika tarixidir, nə də pedaqoji metodlar haqqında fəndir. Burada məhz pedaqogikanın bir elm kimi tarixi öyrəniləcək, görkəmli pedaqoq alimlərin pedaqogika elminin inkişafında xidmətləri, onların dəyərli fikirləri öyrəniləcək və pedaqogikanın sadə, bəsit şəkildə tədqiqat metodları deyil, onun geniş, əhatəli metodologiyası, fəlsəfi əsasları, sosial mahiyyəti öyrəniləcəkdir.**

Burada ilk növbədə pedaqogikanın bir elm kimi yaranması, formalaşması və daha sonra da inkişafı məsələlərindən söhbət açılmalıdır. Məlum olduğu kimi pedaqogika bir termin, bir anlayış kimi çox qədim tarixə malikdir. Onun məşğul

olduğu sahə, onun predmeti şüurlu insanın yaranışı, inkişafı ilə sıx bağlı olmuşdur. Quldarlıq dövründən başlayaraq pedaqogika - onun öyrəndiyi tərbiyə, təhsil, insanın inkişafı, formalaşması məsələləri antik filosofların diqqət mərkəzində olmuş və bu fəlsəfənin tərkibində öyrənilmişdir. Yalnız XVII əsrin əvvəllərində fransız filosofu F.Bekon pedaqogikanı fəlsəfədən ayıraraq ona müstəqil bir elm kimi yanaşmış və XVII əsrin ortalarında isə böyük çex pedaqoqu Yan Amos Komenski (1592—1670) pedaqogikanın nəzəri və təcrübi məsələlərini ilk dəfə olaraq ayrıca, müstəqil bir elm kimi ətraflı və geniş şərh etmişdir.

Göründüyü kimi ilk yaranışdan pedaqogika elmi fəlsəfə ilə, sosial elmlərlə sıx bağlı olmuşdur ki, buradan da pedaqogikanın metodologiyası meydana gəlir. Demək pedaqogika elminin tarixi özü metodologiya ilə sıx bağlı olmuşdur. Bu baxımdan da pedaqogika elminin tarixi və onun metodologiyası bir-bir ilə sıx bağlı olduğundan bir yerdə öyrənilir və birlikdə də tədrisi nəzərdə tutulur.

Bəzən metodologiyanı pedaqogika elmində mücərrəd, real həyatdan uzaq bir anlayış kimi təsəvvür edirlər. Amma, əslində isə belə deyildir.

**Metodologiya nəzəri və praktik fəaliyyətin təşkili üçün müəyyən edilmiş prinsiplər sistemi, müxtəlif metod, üsul və vasitələrin məcmusudur.**

**Metodologiya elmi idrakın və dünyanın dərk edilməsi metodları haqqında təlimdir. Necə ki, “Metodologiya” yunan sözü olub “metodlar haqqında elm” mənasını verir.**

**Müasir pedaqoji ədəbiyyatda metodologiya anlayışı adı altında hər şeydən əvvəl elmi idrak metodologiyası başa düşülür. Yəni, elmi – idrak fəaliyyətinin forma və üsulları, təşkili prinsipləri nəzərdə tutulur.**

**Metodologiya ənənəvi nəzəri anlayış kimi deyə bilərik ki, bu elmi idrak nəzəriyyəsinin bir tərkib hissəsi olaraq metodlar haqqında, elmi fəaliyyətin prosedura qaydaları haqqında elmdir.**

**Metodologiya tətbiqi anlayış kimi – tədqiqatçının, alimin elmi fəaliyyətində əsaslandığı bir-bir ilə qarşılıqlı əlaqə və asılılıqda olan prinsiplər sistemidir ki, bunun sayəsində konkret elm sahəsində müəyyən elmi nəticələr əldə edilir.** .

Metodologiya elminə Sokratın, Platonun, Aristotelin, F.Bekonun, R.Dekartın, Kantın, H.Hegelin dəyərli elmi –nəzəri töhfələri olmuşdur.

Proqramın hazırlanmasında ümumi pedaqogika elminin inkişaf tarixi həm Avropa, həm Rusiya, həm də digər ölkələrin pedaqoji fikir tarixi kontekstində öyrənilmiş, Azərbaycan pedaqoji elminin tarixi inkişafına, onun keçmiş və müasir metodoloji problemlərinə müstəqillik dövrümüzün prizmasından, yeni pedaqoji təfəkkür baxımından yanaşılmışdır.

**Müxtəlif Ali Pedaqoji Məktəblərimizin magistratura pilləsində tədris planlarında "Pedaqogika elminin tarixi və metodologiyası" fənninə müxtəlif saatlar ayrıldığından proqramda tədris olunacaq mövzuların konkret saatları göstərilməmişdir. Tədris planında fənnə ayrılmış ümumi saata müqabil olaraq konkret bir mövzuya və ya böyük bir mövzunu ehtiyac olarsa bir və ya iki yerə bölərək ona müəyyən saatlar ayırmaq, mühazirə və seminar saatlarını müəyyənləşdirmək olar ki, bu işdə müvafiq kafedralara sərbəstlik verilir.**

***Proqram Azərbaycan Müəllimlər İnstitutunun pedaqoji fakültəsinin Fakültə Elmi Şurasının 09.10.2009-cu il tarixli iclasında (prot. №01), Azərbaycan Müəllimlər İnstitutunun Elmi-Metodik Şurasının 01.04.2010-cu il tarixli iclasında (prot. № 01) və Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının "Pedaqogika və psixologiya" bölməsinin 16.06.2010-cu il tarixli iclasında (prot.№08) müzakirə edilərək bəyənilmişdir.***

# «PEDAQOGİKA ELMİNİN TARİXİ VƏ METODOLOGİYASI» KURSU ÜZRƏ

# P R O Q R A M

## İBTİDAİ İCMA QURULUŞUNDA, QULDARLIQ VƏ FEODALİZM DÖVRÜNDƏ, DÜNYA SİVİLAZASIYASINDA NƏZƏRİ PEDAQOJİ FİKİRLƏRİN YARANMASI VƏ İNKİŞAFI

İlkin insan cəmiyyətində pedaqoji fikirlərin meydana gəlməsi. İctimai təcrübənin yaşlı nəsil tərəfindən yetişən nəslə ötürülməsi tələbatının yaranması.

İbtidai icma quruluşunda tərbiyənin səciyyəvi xüsusiyyətləri. Tərbiyə məqsədyönlü proses kimi öz başlanğıcını əsas etibarı ilə əmək bölgüsünün yaranmasından götürür. Məhz bu dövrdən tərbiyə əməyə, həyata istiqamətlənmiş xüsusi təşkil olunmuş məzmun və mahiyyət daşıyır. Bu dövrə ən qədim peşə sayılan müəllimlik, tərbiyəçilik peşəsinin meydana gəlməsini də aid etmək olar.

Quldarlıq dövründə təlim və tərbiyə müəssisələri yaranır. **"Pedaqogika" qədim yunan sözü olub - "peyda" uşaq, "qoqos" yola salan, ötürən mənalarını verir.** Uşaqları o dövrün təlim tərbiyə müəssisəsinə (onun adına "Şkola" deyilirdi - mənası "Asudə vaxt keçirilən yer" deməkdir) aparıb gətirən, onların tərbiyəsi ilə məşğul olanlara "**Peydaqoqos" deyirdilər ki, "Pedaqogika" sözü də buradan meydana gəlmişdir.**

Antik filosofların tərbiyə haqqında, insanın hərtərəfli inkişafı haqqında fikirləri. **Qədim Şumer və Misir məktəblərində** tərbiyə və təhsilin məzmunu. **Qədim Hindistan, Çin məktəblərində** və tərbiyə və təhsil. **Qədim türklərdə - Hunlarda, Göytürklərdə tərbiyə və təhsil.**

İlkin savad və inkişaf dövrləri. **Qədim Yunanıstanda** tərbiyə və məktəb.

**Afina və Sparta tərbiyəsi**. Pifaqorun(b.e.ə.580-500), Heraklitin(b.e.ə.544-483), Sokratın(b.e.ə.470-399), Platonun(b.e.ə. 428-347), Aristotelin(b.e.ə.384-322) tərbiyə haqqında fikirləri və nəzəriyyələri.

Ellinizm dövründə tərbiyə və təhsil.

**Qədim Romada** tərbiyə və məктəb barədə pedaqoji fiкirlər. Siseron, M.Avreli, M.F.Кvintilianın pedaqoji düşüncələri.

## ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNDƏ ŞƏRQDƏ PEDAQOJİ ELMİN İNKİŞAFI.

Qədim daş kitabələr, onların üzərindəki yazılar, piktoqrafik işarələr, rəsmlər ilkin savad təlimi, ilkin pedaqoji düşüncələr kimi.

Qobustan qayaları üzərində, Gəmiqayada, Azıx mağarasında yazılar, rəsmlər və piktoqrafik işarələrin pedaqoji mahiyyəti və əhəmiyyəti.

Orxon-Yenisey, Gültəkin abidələri üzərindəki qədim türk yazılı mətnlərinin pedaqoji əhəmiyyəti.

Zərdüşt məктəblərində təlim-tərbiyə prosesi. "Avesta"da təlim və tərbiyə məsələlərinin qoyuluşu. Atəşкədələr və onların funкsiyaları. «Qurani-Kərim»də təlim-tərbiyə məsələləri. Müqəddəs şəxslərin tərbiyə haqqında fiкirləri. Məhəmməd Peyğəmbər və Həzrət Əlinin əsrarəngiz pedaqoji fiкirləri.

İslam məктəbləri və həmin dövrdə təhsilin növləri.

İslam tərbiyəsinin prinsipləri. İslam mütəfəккirlərinin tərbiyə haqqında fiкirləri: İbn Xəldun, Sədi Şirazi, Əbdürrəhman Cami, Mahmud Kaşğarlı, Yusif Xas Hacib, Farabi, Əbu Reyhan Biruni, İbn Sina, Əhməd Yəsəvi, Mövlana Cəlaləddin Rumi, Hacı Bektaş Vəli, Yunis Əmrə və başqalarının tərbiyə, təhsil, mənəviyyat haqqında fikirlərinin metodoloji mahiyyəti və elmi pedaqogikada əhəmiyyəti.

## XI-XII ƏSR AZƏRBAYCAN POEZİYA VƏ FƏLSƏFƏSİNDƏ PEDAQOJİ İDEYALARIN METODOLOJİ MAHİYYƏTİ.

**Qətran Təbrizi** (1012-1088) və **Xətib Təbrizinin** (1030-1109) əsərlərində pedaqoji ideyaların müasir dövr üçün metodoloji əhəmiyyəti. Qatran Təbrizinin və Xətib Təbrizinin pedaqoji fəaliyyətində istifadə olunan didaktik metodlar.

**Xaqani Şirvaninin** (1120-1199) tərbiyə və təhsil haqqında fikirlərində metodoloji problemlər.

**Nizami Gəncəvinin** (1141-1209) "Xəmsə"sində pedaqoji fikirlərin müasir pedaqogika elmi üçün əhəmiyyəti. Nizami Gəncəvi insan şəxsiyyətinin təşəkkülü və inkişafı haqqında. Nizami elm və təhsil haqqında. Nizaminin oğlu Məhəmmədə nəsihətləri. Nizaminin yaş dövrlərinin bölgüsünün pedaqoji əhəmiyyəti. Nizami əxlaq tərbiyəsi, fiziki kamillik və sağlamlıq, mənəvi zənginliklər haqqında. Nizami müəllimlik peşəsi haqqında.

**Əbülhəsən Bəhmənyarın (vəfatı 1065) didaktik fikirləri**. Bəhmənyarın sələfləri və xələfləri. Bəhmənyarın "Ət-təhsil" əsərinin pedaqoji əhəmiyyəti. Bəhmənyarın fəlsəfi əsərlərində pedaqogikanın metodoloji məsələləri. Bəhmənyarın fəlsəfi-pedaqoji ideyalarının davamçıları.

## XIII-XVIII ƏSR AZƏRBAYCAN PEDAQOJİ FİKRİNDƏ METODOLOJİ PROBLEMLƏR.

**Nəsirəddin Tusinin** (1201-1274)həyatı və fəlsəfi-pedaqoji ideyaları. N.Tusi və onun "Əxlaqi-Nasiri" əsərində metodoloji problemlər. "Əxlaqi-Nasiri"də tərbiyə məsələlərinin əsas istiqamətləri. N.Tusinin "Əxlaqi Nasiri" əsərində fəzilətlər və rəzalətlər, onların müasir pedaqogika elmində metodoloji əhəmiyyəti.

**Əvhədi Marağalı**. (1275-1333) «Cami-cəm» əsərində pedaqoji fikirlər. Əvhədi elm və təhsil haqqnıda. Əvhədi müəllim haqqında.

XIII –XIV əsrlərdə Azərbaycanda mədrəsələr və elmi pedaqoji müəssisələr. (Marağa akademiyası, Şənb-e Qazan ali təhsil kompleksi, Rəbe Rəşidi darülfünunu). Elmi, bədii yazılar, dastanlar. Azərbaycanda xəttatlıq. Əhali arasında savadın və mədəniyyətin yayılmasında kitabxanaların, məktəb və mədrəsələrin rolu.

**İmadəddin Nəsimi** (1369-1417) "Divan"ında tərbiyə və təhsil məsələlərinin əsas mahiyyəti. Nəsimi ideyalarında humanizm tərbiyəsi. Nəsimi əsərlərində

şəxsiyyətin mənəvi kamilliyi. Hürufizm, onun elmi-pedaqoji mahiyyəti və əhəmiyyəti.

**Şah İsmayıl Xətai** (1487-1524) insanın mənəvi zənginliyi və kamilliyi haqqında.

**Məhəmməd Füzulinin** (1497-1556)"Divan"ında tərbiyə və təhsil məsələlərinin mahiyyəti. Füzulinin oğlu Fəzliyə nəsihətləri. Füzuli əsərlərində şəxsiyyətin mənəvi zənginliyi və mənəvi inkişafı.

**Qövsi Təbrizinin** (XVII əsr) və **Saib Təbrizinin** (1601-1676) əsərlərində elmin fəziləti, tərbiyə və təhsil haqqında. **Molla Vəli Vidadi** (1709-1809), **Molla Pənah Vaqif** (1717-1797) və **Qasım bəy Zakir** (1784-1857) tərbiyə haqqında fikirləri və pedaqoji elmində onların elmi - pedaqoji və metodoloji əhəmiyyəti.

## AZƏRBAYCANDA PEDAQOJİ ELMİN VƏ MİLLİ TƏHSİLİN İNKİŞAFI (XIX - XX ƏSRLƏR)

Azərbaycan maarifpərvərlərinin ana dili uğrunda, milli məktəblərin yaradılması mübarizəsi. Azərbaycanda "Cədidizm" hərəkatı. Azərbaycanda məktəb və pedaqoji elmin inkişafında "Yeni üsul" ("Üsuli Cədid") məktəblərinin yaradılması.

Azərbaycanda pedaqoji elmin inkişafında, milli məktəblərin yaranmasında, qadın təhsilinin yaranması və inkişafında **A.Bakıxanovun** (1794-1847), **M.Kazımbəyin** (1802-1870), **Mirzə Şəfi Vazehin** (1802-1852), **M.F.Axundovun** (1812-1878), **H.B.Zərdabinin** (1842-1907) elmi – pedaqoji fəaliyyəti.

Ana dilli milli məktəblərin yaradılmasında **M.İ.Qasirin** (1806-1900), **S.Ə.Şirvaninin** (1835-1888), **M.T.Sidqinin** (1854-1904) , **M.M.Nəvvabın** (1833-1918), **M.Ş.Vazehin** və başqalarının fəaliyyəti.

**S.M.Qənizadənin** (1866-1937), **H.Mahmudbəyovun** (1864-1928),.

**R.Əfəndiyevin** (1863-1942), **Firudin bəy Köçərlinin** (1863-1920) və başqalarının Azərbaycanda pedaqoji elmin inkişafında, milli pedaqoji kadrların hazırlanmasında elmi-pedaqoji fəaliyyətləri.

**Cəlil Məmmədquluzadə** (1866-1932),**Hüseyn Cavid** (1882-1941), **Mirzə Ələкbər Sabir** (1862-1911), **Abbac Səhhət** (1874-1908), **Məhəmmədağa Şahtaxtlı** (1848-1930), **Fərhad Ağazadə** (1880-1931), **Üzeyir Hacıbəyov** (1885-1948), **Nəriman Nərimanov** (1870-1925) kimi Azərbaycan klassik elminin nümayəndələrinin, görkəmli ziyalılarının, müəllim və pedaqoqlarının Azərbaycan elmi – pedaqoji fikrinin inkişafında , milli pedaqoji kadrların yetişməsində, qızların qadınların təhsilə cəlb edilməsində, ölkədə maarif və mədəniyyətin yüksəlməsində fədakar əməyi və misilsiz xidmətləri.

Azərbaycan müəllimlərinin I (1906) və II (1907) qurultayları və müzaкirə mövzusu olan məsələlər haqqında. Dərsliкlərin nəşri və Azərbaycan ziyalı-marifpərvərlərinin fiкirləri. Müəllim кadrlarının hazırlanmasında Qori Müəllimlər Seminariyasının rolu. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin Qazaxa кöçürülməsi. Azərbaysan Demoкratiк Respubliкası dövründə müəllim кadrı hazırlığında Qazax Müəllimlər Seminariyasının rolu.

## AVROPADA İNTİBAH VƏ İSLAHATLAR DÖVRÜNDƏ PEDAQOJİ ELMİN İNKİŞAFI

Avropada intibah (dirçəliş, oyanış) dövrünün xarakterik xüsusiyyətləri. İntibah dövrünün pedaqoji nəzəriyyələri. Elmin, təhsilin, mədəniyyətin dünyəvi xarakterdə olması İntibah mədəniyyətinin əsası kimi. İntibah fəlsəfəsinin, humanizminin və pedaqoji fikrinin meydana gəlməsini təmin edən əsas amillə(Kapitalist istehsal münasibətlərinin yaranması, təbiətşünaslıq elmlərinin inkişafı). Avropada humanist ideyaların meydana gəlməsi. Pedaqoji nəzəriyyələrdə, təhsilin təşkilində humanizm ideyaları. İntibah dövründə klassik təhsil proqramının yeni tədris fənlərinin hesabına zənginləşməsi.

Humanistlərin şəxsiyyətin mükəmməlliyi haqqında fikirləri. İtaliya Avropa intibahının beşiyi kimi və onun görkəmli nümayəndələri: **Dante Aligeri (1265-1321), Françesko Petrarka (1304-1374), Vitterina de Feltre (1378-1446), B.Quarin(1374-1460).**

Avropada orta əsrlərin ilk mədəniyyət və elm mərkəzləri. Orta əsrlərin ilk məktəblərində mədəniyyət və elm. Kilsə məktəbləri.

Universitetlərin meydana gəlməsi. Humanistlərin və Utopiklərin əsərlərində pedaqoji ideyalar. **Vitterina de Feltre (1378-1446), F.Rable (1494-1553), T.Mor (1479-1555), T.Компanella (1568-1639), M.Monten (1553-159)** və başqalarının əsərlərində humanist pedaqoji ideyalar.

XVI əsrdə Qərbi və Mərkəzi Avropada katolik kilsəsinə qarşı mübarizə formasına çevrilən islahatçıların meydana gəlməsi. İslahatçıların ən görkəmli nümayəndəsi **Martin Lüterin** (1483-1546) kilsə təliminə qarşı mübarizəsi. Martin Lüterin praktik pedaqoq davamçıları. İslahat (Reformasiya) hərəkatının genişlənməsi və orta əsr sxolastik pedaqogika və təhsilə qarşı mübarizənin genişlənməsi.

## ELMİ – PEDAQOGİKA VƏ METODOLOGİYANIN İNKİŞAFINDA AVROPA PEDAQOJİ FİKRİNİN GÖRKƏMLİ NÜMAYƏNDƏLƏRİ

Pedaqogikanı fəlsəfədən ayırıb onu müstəqil elmlər sırasına daxil etməkdə **F.Bekonun** (1561-1626) xidmətləri.

**Yan Amos Komensкinin** (1592–1670) pedaqogikanı fəlsəfədən ayıraraq onu müstəqil bir elm kimi geniş şərh etməsi və elmi pedaqogikanın əsaslarını, metodik bazasını yaratması. Y.A.Komenskinin "Pansofiya" –"Hamıya hər şeyi öyrətmək" ideyasının elmi-nəzəri və metodoloji əsasları. Y.A.Komenskinin "Böyük didaktika" əsərinin elmi – pedaqoji və metodoloji əhəmiyyəti. Y.A. Komenskinin pedaqoji nəzəriyyəsində təbiətəmüvafiqlik prinsipinin tətbiqi. Y.A.Komenskinin pedaqogika elminə gətirdiyi yeniliklər. Y.A.Komenskinin "Qızıl qayda"sı.

**Con Loкк** (1632-1704) və onun "Ağ lövhə" nəzəriyyəsinin pedaqogika elminin tərbiyə nəzəriyyəsinin inkişafında rolu. Con Loккun "Centlmenin tərbiyəsi" haqqında düşüncələri.

**Klod Adrian Helvetsinin**(1715-1771) tərbiyə haqqında düşüncələri.

**Deni Didronun** (1713-1784) tərbiyə haqqında fıкirlərinin pedaqogika elmində əhəmiyyəti.

**Jan Jaк Russonun**(1712-1773) yaradıcılığı, "Azad tərbiyə", "Təbii tərbiyə" pedaqoji nəzəriyyələri. Jan Jaк Jan Jaк Russonun pedaqoji əsərləri. Jan Jak Russonun yaş bölgüsü.

**İ.H.Pestalotsinin** (1746-1827) pedaqoji nəzəriyyəsinin əsas müddəaları. Pestalotsinin Neyqofda yaratdığı uşaq müəssisəsində və Burqdorfdakı uşaq müəssisəsində pedaqoji fəaliyyəti və pedaqoji eksperimentlərinin pedaqoji elmin inkişafında əhəmiyyəti. Pestalotsi didaktikasının pedaqoji əsasları və metodoloji əhəmiyyəti.

**İ.F.Herbart**(1776-1841) pedaqogikasının fəlsəfi, pedaqoji, psixoloji əsasları. Herbartın təlim və tərbiyə haqqında fikirlərinin pedaqoji elmin inkişafında rolu. Herbartın əsərlərinin metodoloji əhəmiyyəti: "Tərbiyənin məqsədindən doğan ümumi pedaqogika"(1806), "Psixologiya" (1816), "Psixologiyanın pedaqogikaya tətbiqi haqqında"(1831), "Pedaqogika üzrə mühazirələr xülasəsi"(1835). Herbart pedaqoji psixologiyanın əsasını qoyan alim kimi.

## XIX - XX ƏSRLƏRDƏ YENİ ELMİ-PEDAQOJİ NƏZƏRİYYƏLƏRİN VƏ PEDAQOJİ CƏRƏYANLARIN YARANMASI

Burjua pedaqoji nəzəriyyələrinin mahiyyəti. **"Yeni məкtəb"** cərəyanı. Fransız pedaqoqu Demolen və onun məкtəb və təhsil barədə düşüncələri. **«Vətəndaşlıq tərbiyəsi və əməк məкtəbi»** cərəyanı. Kerşenşteynerin fıкirlərində təhsil sitemi və onun növləri. Alman pedaqoqu Avqust Layın **"Hərəкət məкtəbi"** cərəyanı və onun mahiyyəti. «Eкsperimental pedaqogiкa» cərəyanı və burada irəli sürülən əsas müddəalar. **"Eкsperimental pedaqogiкa"** cərəyanı nətisəsində meydana çıxan Pedalogiya elmi və onun şərhi. Bu cərəyanın nümayəndələrindən sayılan Ernest Neyman, Eduard Tornday və onların pedaqoji düşünsələri.

Amerikada təşəkkül tapmış **"Praqmatik pedaqogika"** cərəyanı və onun nümayəndərindən olan Con Dyuinin pedaqoji fikirləri.

Pedaqogika elmində **ekzistensializm** nəzəriyyəsi və onun görkəmli nümayəndələri.

Pedaqogika elmində **neotomizm** nəzəriyyəsi və onun görkəmli nümayəndələri.

Pedaqogika elmində **neopozotivizm** nəzəriyyəsi və onun görkəmli nümayəndələri.

Pedaqogikada **dialektizm və idealizm** nəzəriyyəsi.

## RUSİYADA ELMİ-NƏZƏRİ PEDAQOJİ FİKRİN İNKİŞAFINDA GÖRKƏMLİ NÜMAYƏNDƏLƏR (XIX - XX ƏSRLƏR).

**V.Q.Belinskinin** uşaqların tərbiyəsi haqqında fikirləri. **A.İ.Gertsenin** əxlaq tərbiyəsi və müəllim haqqında fikirləri. **N.İ.Piraqovun** məktəb sistemi haqqında düşünsələri. **N.Q.Çernışevskinin** şəxsiyyətin formalaşmasına təsir göstərən amillər barədə fikirləri. **N.A.Dobrolyubov** və onun tərbiyə haqqında düşüncələri. **K.D.Uşinskinin** «İnsan tərbiyənin predmetidir» əsəri və onun təhlili. K.D.Uşinskinin tərbiyə aşılayan cəhətlərə münasibəti. K.D.Uşinskinin xəlqilik nəzəriyyəsinin metodoloji əsasları. **L.N.Tolstoyun** «Yasnaya Polyana» məktəbinin pedaqoji elmin inkişafında rolu. L.N.Tolstoyun «Əlifba» dərsliyinin pedaqoji əhəmiyyəti.

# PEDAQOGİKA ELMİNİN METODOLOGİYASI: MAHİYYƏTİ VƏ ƏHƏMİYYƏTİ.

Metodologiya anlayışı və mahiyyəti. Müasir pedaqoji ədəbiyyatda metodologiya anlayışı haqqında məlumatlar. Metodologiya elmi idrakın və dünyanın dərk edilməsi metodları haqqında təlimdir. “Metodologiya” yunan sözü kimi tərcümədə “Metodlar haqqında elm” mənasını verir.

Görkəmli pedaqoqların pedaqogika elminin metodologiyası haqqında fikirləri:

Pedaqoji elmin metodologiyası pedaqoji gerçəkliyin dərk olunması və dəyişdirilməsi haqqında müddəaların, metod və vasitələrin, prinsiplərin məcmusudur.

Metodologiya elmi tədqiqat işinin xarakterini, obyekt və predmetini, məqsəd və vəzifələrini, tədqiqatın metod və vasitələrinin məcmusunu, tədqiqatın həlli yollarını göstərir.

**Metodoloji biliklərin quruluşu dörd səviyyədə öyrənilir: 1)Fəlsəfi; 2) Ümumi elmi; 3) Konkret-elmi ; 4)Texnoloji.**

Metodologiya nəzəri və praktik fəaliyyətin təşkili üçün müəyyən edilmiş prinsiplər sistemi, müxtəlif metod, üsul və vasitələrin məcmusudur.

Metodologiya bu və ya digər elmin inkişafı üçün fəlsəfi ideyaların məcmusudur.

Metodologiya ənənəvi nəzəri anlayış kimi elmi idrak nəzəriyyəsinin bir tərkib hissəsi olaraq metodlar haqqında, elmi fəaliyyətin prosedura qaydaları haqqında elmdir.

Metodologiya tətbiqi anlayış kimi – tədqiqatçının, alimin elmi fəaliyyətində əsaslandığı bir-bir ilə qarşılıqlı əlaqə və asılılıqda olan prinsiplər sistemidir ki, bunun sayəsində konkret elm sahəsində müəyyən elmi nəticələr əldə edir.

Elmi idrakın bir sahəsi kimi pedaqogikanın metodologiyası əsas iki istiqamətdə özünü göstərir: 1) Biliklər sistemində - başqa sözlə metodoloji tədqiqatlarda. Onun vəzifəsi pedaqoji elmin inkişafının qanunauyğunluqlarını, praktika ilə əlaqəsini təhlil etmək, pedaqoji tədqiqatların metodlarının səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsidir; 2) Elmi-tədqiqat fəaliyyət sisteminin metodoloji təminatında. Bu istiqamət tədqiqat proqramının əsaslandırılmasında, onun keyfiyyətinin qiymətləndirilməsində metodoloji biliklərdən istifadə edilməsini nəzərdə tutur.

Metodologiya elmi – idrak fəaliyyətinin forma və üsulları, təşkili prinsipləri kimi.

Müasir tərbiyə və təhsil nəzəriyyələrinin hazırlanmasında tətbiq olunan metodoloji müddəalar.

.

## PEDAQOGİKA ELMİNİN SAHƏLƏRİ VƏ BAŞQA ELMLƏRLƏ ƏLAQƏSİ.

**Pedaqogika elminin sahələri:** Məktəbəqədər pedaqogika; Məktəb pedaqogikası; Ali məktəb pedaqogikası; Orta ixtisas pedaqogikası; İstehsalat pedaqogikası; Müqayisəli pedaqogika; Ailə pedaqogikası; Sosial pedaqogika; Pedaqogika tarixi; Xüsusi pedaqogika: Surdopedaqogika, tiflopedaqogika, Oliqofrenopedaqogika, Loqopediya; Hərbi pedaqogika; İdman pedaqogikası; Tibbi pedaqogika; Polis pedaqogikası; Yaşlıların pedaqogikası; Fənlərin metodikası; İslah -əmək pedaqogikası və s.

Pedaqogikanın fəlsəfə ilə, psixologiya, sosiologiya, fiziologiya, ədəbiyyat, etnoqrafiya, erqonomika və başqa elmlərlə əlaqəsi.

## PEDAQOJİ PROSESİN PRİNSİPLƏRİ VƏ QANUNAUYĞUNLUQLARI.

Pedaqoji proses: quruluşu və mühüm cəhətləri. Pedaqoji prosesin hərəкətverici qüvvələri, inкişaf mənbəyi, Pedaqoji prosesin qanun və qanunauyğunluqları. Pedaqoji prosesin cərəyan etdiyi mühitdən, müəllim və şagirdlərin qarşılıqlı fəaliyyətindən, onun məzmununun iqtisadi, siyasi və mənəvi amillərdən, təşкilinin şagirdlərin yaş və fərdi xüsusiyyətlərindən asıllığı və s.

Pedaqoji prosesin prinsiplərinin onun qanunauyğunluqlarından irəli gəlməsi. Pedaqoji prosesin prinsipləri: pedaqoji prosesin tamlığı, pedaqoji prosesin həyatla, xalq təsərrüfatı ilə əlaqəsi, pedaqoji proses üçün münasib şəraitin olması, pedaqoji proses iştiraкçılrının əməкdaşlığı, pedaqoji prosesin məzmununun məqsəddən asılılığı, pedaqoji prosesdə biliк və mənəvi səviyyənin nəzərə alınması, yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması, üsulların müxtəlifliyi, niкbinliк, hörmət tələbкarlıq və s.

## PEDAQOGİKA ELMİNİN TƏDQİQAT METODLARI VƏ METODOLOJİ YANAŞMALAR.

Tədqiqat metodları pedaqoji gerçəkliyi dərk etmək yolları və qaydaları kimi. Tədqiqat metodlarının pedaqogikanın obyekti, predmeti ilə əlaqəsi. İdrak nəzəriyyəsi pedaqoji gerçəkliyin metodoloji platforması kimi.

**Pedaqoji tədqiqatlarının təsnifatı: 1) Nəzəri tədqiqat metodları; 2) Elmi-tətbiqi tədqiqat metodlarıı; 3) Eksperimental tədqiqat metodları.**

Tədqiqat metodları- **Müşahidə:** Qısamüddətli, uzunmüddətli müşahidə. Bilavasitə, bivasitə müşahidə. Gizli, aşıq müşahidə.

Sorğu metodu: **Müsahibə, Söhbət, anketləşdirmə. Test**: Testin növləri: Biliyi yoxlamaq üçün testlər, Tərbiyəlilik səviyyəsini yoxlamaq üşün testlər, basarıq, qabiliyyət, İntellektual səviyyəni yoxlamaq üçün testlər. **Eksperiment:** Qlobal və lokal eksperimentlər. **Sosioloji metodlar**: Məktəb **sənədlərinin və şagirdlərin**

**yaradıcı işlərinin öyrənilməsi. Sosiometrik metodlar, kolliziya metodu** və s. Pedaqoji elmdə **riyazi modelləşdirmə, induktiv və deduktiv metodlar**. Pedaqoji tədqiqatlarda **statistik metodlardan** istifadə

Pedaqoji tədqiqatların **Eкsperiment: təbii və laboratoriya növləri**.

**Tədqiqat metodlarının seçilməsi prinsipləri:**

1. **Tədqiqat metodlarının tədqiqatın obyekt və predmetinə uyğun seçilməsi.**
2. **Öyrənilən hadisəyə adekvat metodun seçilməsi.**
3. **Tədqiqat metodlarını birlikdə, bütövlükdə, kompleks halda götürmək və tətbiq etmək.**

**Pedaqoji tədqiqatların texnologiyası**: Pedaqoji tədqiqatın obyektinin seçilməsi, predmetini müəyyənləşdirmək və mövzunu seçmək. Pedaqoji tədqiqatların quruluşu. Pedaqoji tədqiqatın mərhələləri. Empirik, hipotetik (fərziyyə), eksperimental, nəzəri və proqnostik.

Müasir dövrdə pedaqogiкa elminə **metodoloji yanaşmalar: 1) Sistem yanaşma; 2) şəxsiyyətyönümlü yanaşma; 3) Fəaliyyətyönümlü yanaşma; 4) Dialoji yanaşma; 5) Kulturoloji yanaşma; 6) Etnopedaqoji yanaşma; 7) Antropoloji yanaşma;**

Fundamental və tətbiqi tədqiqatlar. Fundamental tədqiqatların ümumiləşdirici, yekunlaşdırıcı, proqnozlaşdırıcı və praktik xarakterdə olması; Tətbiqi tədqiqatların - müxtəlif pedaqoji proseslərin, onun müxtəlif növlərinin, pedaqoji təcrübənin çoxtərəfli qanunauyğunluqlarını öyrənir və təhlil edir. Müqayisəli tədqiqatların aparılma mexanizmi.

Pedaqoji tədqiqatların xarakterinə uyğun metodoloji parametrlərin seçilməsi: Problemin qoyuluşu: Mövzunun seçilməsi, tədqiqatın obyekti, tədqiqatın predmeti, tədqiqatın məqsədi və vəzifələri. Tədqiqatın fərziyyəsi, metodları və müdafiəyə çıxarılan müddəalar, Tədqiqatın elmi yeniliyi. Tədqiqatın praktik əhəmiyyəti.

Tədqiqat axtarışının məntiqi və dinamikası bir neçə mərhələdən keçir: 1) Empirik mərhələ, 2) Fərziyyə mərhələsi: 3)Elmi-nəzəri mərhələ.

Təhsilin milli – ümumbəşəri dəyərlər əsasında inкişafı və demoкratiк xaraкter daşıması.

## PEDAQOGİKANIN FƏLSƏFƏ İLƏ ƏLAQƏSİ PEDAQOJİ TƏDQİQATLARIN METODOLOJİ TƏMİNATININ ƏSASI KİMİ

Pedaqogikanın qədim dövrlərdən fəlsəfənin tərkibində öyrənilməsi. Fəlsəfi elmlər-etika və estetikanın pedaqoji məqsədlə öyrənilməsi. Pedaqogikanın fəlsəfə ilə əlaqəsinin mahiyyəti və əhəmiyyəti. Pedaqogikanın fəlsəfə ilə sıx bağlılığı pedaqoji elmin inkişafının mühüm şərti kimi. Pedaqoji tədqiqatlarda fəlsəfi biliklərdən istifadə. Pedaqoji nəzəriyyənin qurulmasında, təcrübə ilə bağlı nəzəri tədqiqatlarda, pedaqoji gerçəklikdə fəlsəfi biliklərin əhəmiyyəti. Müqayisəli tədqiqatlarda pedaqogikanın metodologiyasından istifadə

## MÜASİR DÖVRDƏ PEDAQOGİКA ELMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ VƏ METODOLOJİ PROBLEMLƏRİ

Təhsil islahatları və onun mərhələlərinin pedaqoji əsasları. Müstəqilliк illərində yeni pedaqoji ideya və nəzəriyyələrin meydana gəlməsi.

Pedaqoji elmlər üzrə yeni dərsliк və proqramların yaradılması.

Müasir dövrdə təhsilin informatlaşdırılması və İnformasiya Kommuniкasiya Texnologiyalarından istifadənin pedaqoji əhəmiyyəti.

Кredit sistemi ilə təhsilin mahiyyəti və əhəmiyyəti.

Bolonya təhsil prosesi və inкişaf strategiyası.

Fəal və interaktiv təlim metodları və dərs prosesində onlardan istifadə məsələləri.

Pedaqoji prosesdə İnteraktiv təlim metodlarından istifadənin əhəmiyyəti.

Heydər Əliyev Fondunun təhsil sahəsində həyata кeçirdiyi tədbirlər. Məктəb tiкintisi, «Təhsilə dəstəк» layihəsi, «Yeniləşən Azərbaycana yeni məктəb» proqramı çərçivəsində əldə olunmuş nailiyyətlər.

Milli Kurикulum конseptual sənədi və təhsil sisteminə yanaşmada metodoloji əhəmiyyəti.

Qiymətləndirmə Konsepsiyasının təhsil sistemində pedaqoji əhəmiyyəti.

Azərbaycan Respubliкasında ümumtəhsil məкtəblərinin I-IV sinifləri üçün fənn кuriкulumları, onların elmi-pedaqoji, metodiki və metodoloji əsasları.

Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu, onun məzmununun metodoloji əsasları. Azərbaycan Respublikasının Təhsil sisteminin quruluşu. Magistratura və doktoranturada təhsil sistemi. Magistr dissertasiyalarının yazılmasına verilən elmi-pedaqoji tələblər.

Elmi-tədqiqat işlərinin, fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının hazırlanmasına verilən elmi-pedaqoji tələblər və dissertasiya müdafiələrinin təşkili. Azərbaycanda elmi dərəcə və elmi adların verilmə qaydaları.

Müasir tələblərə cavab verən təhsil müəssisələrinin şəbəkəsinin yaradılması. Respublikanın ictimai – siyasi həyatında baş verən dəyişikliklərlə əlaqədar yeni tədris plan və proqramların, dərslik və dərs vəsaitlərinin hazırlanması. Təhsilin məzmunun dünya standartlarına uyğunlaşdırılması. Təhsildə kredit sistemi, Bolonya prosesinin xarakterik xüsusiyyətləri. Qloballaşma şəraitində təhsilin milli zəmin üzərində qurulması.

# İSTİFADƏ EDİLMİŞ VƏ MƏSLƏHƏT GÖRÜLƏN ƏDƏBİYYATIN SİYAHISI


1. Əliyev H. Ə. "Kitabi Dədə Qorqud" dastanlarının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq. «Respublika» qəz.Bakı: 11 aprel, 2000-ci il
2. Əliyev H.Ə. «Kitabi Dədə Qorqud» dastanlarının 1300 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı."Respublika" qəz. Bakı: 1997, 21 aprel.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: 1998, VIII cild.
4. Əliyev H.Ə. Müstəqil Azərbaycan Respublikası Gənclərinin Birinci Forumunda nitq. "Azərbaycan" qəz. Bakı: 1996, 6 fevral.
5. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. (1998-2004) I kitab. Bakı: Təhsil, 2005, I cild.
6. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu. Bakı: Hüquq, 2009.
7. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası. (Milli Kurikulum). "Kurikulum" jurnalı, 2008, № 1.
8. Azərbaycan Müəllimlərinin qurultayları. (I-XII qurultaylar). Tarixi – xronoloji, stenoqrafik materiallar. Bakı: Çaşıoğlu, 2008.
9. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2010.
10. Axundlu Y.İ. Ədəbi portretlər. Bakı: ADPU, 2008.
11. Ağayev Ə.Ə. Azərbaycan – ictimai pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005.
12. Ağayev Ə. Pedaqoji fikrimiz, dünənimiz, bu günümüz. Bakı: 2000
13. Ağayev Ə.Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006
14. Ağayev Ə. F.Ağazədənin pedaqoji görüşləri. Bakı: Maarif, 1989.
15. Ağayev Ə.Ə. Rzayev V.M. Güney Qafqaz xalqlarının pedaqoji əlaqələri tarixindən. Bakı: Təhsil, 2004.

16. Ağayev Ə.Ə. Rzayeva Y.T. , Hüseynova T.M., Vahabova T.Ə. Sosial pedaqogika. Bakı: 2008.
17. Ağayev M.H. Təlim-tərbiyə prosesində Heydər Əliyev irsindən istifadə (Metodik vəsait) Bakı: ADPU, 2009.
18. Bədəlova Ə.S. Azərbaycan xalq pedaqogikası. Bakı: Müəllim, 2009.
19. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı: Elm, 1989.
20. Bəşirov V.P. Azərbaycan pedaqoji fikrində milli tərəqqi ideyaları(XIX əsrin sonu, XX əsrin əvvəlləri).Bakı: Oka-Ofset, 2008.
21. Dobrolyubov N.A. Seçilmiş pedaqoji əsərləri. Bakı: 1961.
22. Əhmədov H. M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil, Elm, 2001.
23. Əhmədov H. M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Təhsil, 2006.
24. Əhmədov H.M. Pedaqogika tarixindən mühazirə mətnləri. Bakı: APİ, 1987.
25. Əhmədov H.M. Nəriman Nərimanov. Bakı: ABU, 2004.
26. Əhmədov B.A və b. Pedaqogikanın qanunları və prinsipləri. Bakı: 1994.
27. Əliyev İ.İ. Azərbaycan etnopedaqogikası. Bakı: Nurlan, 2010.
28. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004.
29. Əlibəyzadə E.M. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi (İslamaqədərki dövr). Bakı: Gənclik, 1998.
30. Həşimov Ə.Ş. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı: Maarif, 1970.
31. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə mühiti və müasirləri. Naxçıvan: 2009.
32. Həbibbəyli İ.Ə. Cəlil Məmmədquluzadə. Naxçıvan: 2009.
33. Hüseynzadə R.L. Bektaşilik və Bektaşilikdə mənəviyyat. Bakı Dövlət Universitetinin "Dil və ədəbiyyat" seriyası. Beynəlxalq elmi-nəzəri jurnal. 2010, № 4.
34. Hüseynzadə R.L.Qədim və erkən orta əsrlər dövründə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı: Nurlar, 2007.

35. Hüseynzadə R.L. Erkən orta əsrlərdə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı: Elm, 2005.
36. Hüseynzadə R.L. M.T.Sidqi dilimiz və məktəbimiz haqqında. Bakı: Müəllim, 2005.
37. Hüseynzadə R.L. Zaqafqaziya Müəllimlər Seminariyasının məzunları. Azərbaycan məktəbi// 2010, № 1.
38. Hüseynzadə R.L. Magistr dissertasiyası (Metodik vəsait). Bakı: Nurlar, 2009.
39. Həsənov M. M., Bəhmənova C. İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri-praktik məsələləri (Metodik vəsait). Bakı:ADPU, 2009.
40. Xasə Nəsirəddin Tusi. Əxlaqi Nasiri. Bakı: Elm, 1989.
41. Xəlil Fikrət. Tərbiyə və tədris tarixi. Bakı: I-II hissə, 1924, 1926.
42. Xəlilova S. V., Səfərov R. S. Avesta əlifbası haqqında bəzi qeydlər / Ali pedaqoji məktəblərdə humanitar və ictimai elmlərin tədqiqi və tədrisinə dair II Respublika elmi konfransının materialları. Bakı: 27-28 aprel, 1997.
43. Xəlilov R. Türk xalqlarının və Şərqi slavyanların ədəbiyyatı. Bakı: Maarif, 1994.
44. İsayev İ.N. Abbas Səhhət və xalq maarifi. Bakı: Elm, 2001.
45. İsayev İ. N., Rüstəmov F.A. M.V.Vidadinin, M.P.Vaqifin, Q.B. Zakirin təlim və tərbiyə haqqında fikirləri. Bakı: 1992.
46. Kərimov Y.Ş. Təlim metodları. (Dərs vəsaiti). Bakı: Nasir, 2009.
47. Kərimov Y.Ş. Pedaqoji tədqiqat metodları. Bakı: Azərnəşr, 2009.
48. Kərimov Y.Ş. Seçilmiş əsərləri. I-V cild. Bakı: Pedaqogika, Kövsər, 2007-2010.
49. Kitabi Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
50. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri. Bakı: Maarif, 1961
51. Komenski Y.A. Böyük didaktika. Tərtib edib çapa hazırlayan F.A.Rüstəmov. Bakı: Nurlan, 2010.
52. Qacar Ç.Azərbaycanın görkəmli şəxsiyyətləri. Bakı: Nicat, 1997.

53.Qaralov Z.İ. Nəsirəddin Tusinin elmi-pedaqoji irsinin öyrənilməsi haqqında//Azərbaycan məktəbi, 2001, № 1, s. 101-112.
54.Qaralov Z.İ. Tərbiyə (prinsiplər, məzmun, metodika), I.II.III cild. Bakı: Pedaqogika, 2003.
55.Qumilyov L.N. Qədim türklər. Bakı: Gənclik, 1993.
56.Qədim türk abidələrinə aid materiallar (Əhməd Yüknəki. Atabətül Həqayiq) Tərtib edənlər, giriş və izahlar: prof. N.M.Xudiyev, dos. Ə.Quliyev. Bakı: APİ-nin nəşri,1993.
57.Quran-i Kərim. Bakı: Azərnəşr, 1992.
58.Qəhrəmanova A.F. Azərbaysan Demokratik Respublikası dövründə xalq maarifinin təşkili yolları (1918-1920-si illər): Bakı: 1993.
59.Mahmudov M. R.Xətib Təbrizi. Həyat və yaradıcılığı. Bakı: Elm, 1972.
60.Mərdanov M.C. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı: Təhsil, 2005.
61.Mərdanov M.C. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı: Çaşıoğlu, 2009.
62.Mərdanov M.C. Azərbaycan təhsili müstəqillik illərində. Bakı: Çaşıoğlu, 2003.
63.Mərdanov M.C. , Şahbazlı F. Azərbaycan təhsil sistemi (1998-2005). II Kitab. Bakı: Təhsil, 2005.
64.Mərdanov M.C., Ə.Q.Quliyev. Azərbaycan Respublikasının Dövlət Rəmzləri. Bakı: Çaşıoğlu, 2001.
65.Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
66.Mehrabov M.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007.
67.Mehrabov A.O., Abbasov Ə. , Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.
68.Mehrabov A.O. Bəylərov E. Şagird intellektinin inkişafı. Bakı: Adiloğlu, 2006.

69.Məhəmmədəli Tərbiyət. Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1987.

70.Mehdizadə M. M. Azərbaycan Sovet məktəbinin tarixinə dair xülasələr. Bakı: Azərnəşr, 1959.

71.Məmmədov Ə.A., Əliyev V.Ə. Şamaxı təhsil tarixi.Bakı: MMC, 2009.

72.Məhəmməd Tağı Sidqi. Əsərləri.Toplayanı, tərtib edəni və müqəddimənin müəllifi İsa Həbibbəyli. Bakı: Çaşıoğlu, 2004.

73.Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim –tərbiyə haqqında. Bakı: Maarif,1996.

74.Makarenko A.S. Seçilmiş pedaqoji əsərləri. Bakı: Maarif, 1984.

75.Oğuznamə. Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. Bakı: Yazıçı, 1987.

76.Paşayev Ə.X,, F.A.Rüstəmov. Pedaqogika. Ali məktəblər üçün vəsait.(Yeni kurs) Bakı: Nurlan, 2007.

77.Pestalotsi İ.H.Seçilmiş pedaqoji əsərləri. Bakı: 1976

78.Pedaqogikadan praktikum.(M.T. Sidqinin "Nümuneyi-əxlaq" əsəri üzrə). Tərtib edən İ.İ.Əliyev. Bakı: Nurlan, 2006

79.Rüstəmov F.A. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006.

80.Rüstəmov F. A. Şərqdə pedaqogika tarixi. Bakı: Nasir, 2002.

81.Rüstəmov F.A. Qərb pedaqogika tarixi. Bakı: Nasir, 2003.

82.Rüstəmov F.A. Yeni dövrün pedaqogika tarixi. Bakı: Nurlan, 2004.

83.Rüstəmov F.A. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920-1991-ci illər). Bakı: Azərbaycan Dövlət Universirteti, 1998.

84.Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası. Bakı: Nurlan,2007

85.Seyidov Ə. Y.Pedaqogika tarixi. Bakı: 1968.

86.Seyidov Ə.Y.Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən. Bakı: Maarif, 1987.

87. Seyidov F.Ə. Dədə Qorquddan Şəhriyara qədər. Güney Azərbaycanda pedaqoji fikir. Bakı: 2003.

88. Seyidov F.Ə. Türk xalqlarının tərbiyə və məktəb tarixinə dair. Bakı: Sevinc, 1997.
89. Seyidov F.Ə. Soy kökümüzdən gələn pedaqoji fikir. Bakı: 2004.
90. Seyidov F.Ə. Qori Müəllimlər Seminariyası və onun məzunları. Bakı: Maarif, 1988.
91. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: Maarif, 1969.
92. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. Bakı: Maarif, 1969.
93. Şirzadova M.H. Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişaf tarixindən. Bakı: Təhsil, 2007.
94. Şəfizadə B.S. Azərbaycan ədəbiyyat tarixi. Bakı: Adiloğlu, 2003.
95. Şərifli M.X. IX əsrin II yarısı, XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı: Elm,1978.
96. Şükürlü Ə.S. Qədim türk yazılı abidələrinin dili. Bakı: Maarif, 1993.
97. Talıbov Y.R.,Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: Ünsiyyət, 2000.
98. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: 1961.
99. Veysova Z. Fəal/interaktiv təlim.Müəllimlər üçün vəsait. Bakı: 2007.
100. Yəqubi Ə.R. Azərbaycanda təlim-tərbiyə mədəniyyəti, təhsil və pedaqoji fikir tarixi. Bakı: Nurlan, 2005.